# Qeyri-tarazlıq psixologiyası: sahə nəzəriyyəsinə yeni baxış

**Məhərrəm Əliyev**
*ADPU-nun "Ümumi psixologiya" kafedrasının*
*baş müəllimi,*
*psixologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** m_a_1977@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. U.M. Qəzvini,
psixol.ü.f.d. dos. R.N. Mirzəyev

**Açar sözlər:** qeyri-tarazlıq psixologiyası, sahə nəzəriyyəsi, zaman oxu, zaman perspektivi
**Ключевые слова:** неравновесная психология, теория поля, временная ось, временная перспектива
**Key words:** non-equilibrium psychology, field theory, time axis, time perspective

Sahə nəzəriyyəsinin şərhini verərkən, K.Levinin (1890-1947) və onun tələbəsi olmuş B.V.Zeyqarnikin (1900-1980) əsərlərindən sitat gətirməyə üstünlük vermişik.

K.Levin şəxsiyyət probleminə (tələbat-motivasiya) diqqət yönəltmiş geştalt psixologiyanın parlaq simalarından biri sayılır. Həmin məktəbin aşağıdakı əsas müddəaları onun dinamik nəzəriyyəsində öz əksini tapmışdır [2, 13]:

1. Aləmin obrazı (geştalt) ayrı-ayrı elementlərin sintezi yolu ilə deyil, birdən yaranır. Geştalt hissələrin cəmi deyil, tam strukturu ifadə edir. Tam hissələrdən asılı deyil, hissə tamdan asılıdır;

2. Obraz "indiki anda" (ad hoc) yaranır. Bu geştaltın yaranmasında keçmiş təcrübə rol oynayır. O, "insayt" (Aha-Erlebnis) yolu ilə yaranır;

3. İzomorfizm prinsipi, başqa sözlə, psixoloji qanunauyğunluqların fizioloji (fiziki) qanunauyğunluqlarla eyniyyətini iddia edən prinsip.

Yuxarıda sadalanan müddəalar K.Levinin yaradıcılığında öz əksini tapmaqla, onun şəxsiyyətə yanaşmasının istiqamətini müəyyən etmişdir.

Kvazitələbat (qeyri-həqiqi tələbat), həyati məkan, valentlik, bölgələr, sərhədlər, lokomosiya və s. bu kimi anlayışlar K.Levinin sahə nəzəriyyəsinin əsas kateqoriyalarıdır.

K.Levin yazır: "Böyük ehtimalla, sahə nəzəriyyəsini metod – məhz səbəb münasibətlərinin təhlili və elmi konstruktların qurulması metodu kimi xarakterizə etmək ən yaxşısıdır" [3, 240]. Onun fikrincə, "sahə nəzəriyyəsi istənilən hadisənin çoxlu faktorların təsiri nəticəsi olduğu faktının əhəmiyyətini qeyd etməklə yanaşı, sahə nəzəriyyəsinin nəsə daha spesifik bir şey olduğunu vurğulayır" [3, 239].

K.Levinin fikrincə, psixoloji sahədə baş verən istənilən davranış indiki anda mövcud olan psixoloji sahədən asılıdır; "sahənin psixoloji nəzəriyyəsinin əsas müddəalarından birini növbəti şəkildə formulə etmək olar: psixoloji sahədə istənilən davranış yaxud hər hansı digər dəyişiklik tamamən indiki anda mövcud olan psixoloji sahədən asılıdır" [3, 241].Öz fikrini əsaslandırmaq üçün o, klassik fizikadan nümunə gətirərək yazır ki, "fiziki aləmdə x nöqtəsində dəyişiklik, adətən, dx/dtkimi, b.s. x yerləşməsinin dt zaman diferensialına görə dəyişməsi diferensialı kimi ifadə olunur. Sahə nəzəriyyəsi təsdiq edir ki, t zaman anında (dilimində) dx/dt dəyişikliyi tamamən indiki anda mövcud olan $S^t$ situasiyasından asılıdır (şəkil 1):

*dx/dt = F ($S^t$)* [3, 241]

K.Levinin fikrincə, "o, keçmiş ya da gələcək situasiyalardan asılı deyil. Başqa sözlə, formul (1) doğrudur, formul (1a) isə - doğru deyildir: $dx = F(S^t) + F^1(S^{t-1}) + ... F^2(S^{t+1}) + ...$ (1a)" [3, 241].

Lakin bunun ardınca, o, həmçinin qeyd edir ki, "əlbəttə, fizikada elə hallar olur ki, biz dəyişiklik və keçmiş $S^{t-n}$ situasiyası arasında münasibətin olması haqda danışa bilərik (harda ki, t-n bilavasitə t-dən həmən öncə gəlmək zorunda deyil;

*/ t-n / > dt*).




*t-n*-dən *t+n*-ə qədər aralıqda *S* kəmiyyəti özlüyündə "qapalı sistem"i ifadə edir, lakin*SS¹*-lə genidentik deyil, dx/dt*x* sürətini bildirir [93, 241

Başqa sözlə, elə hallar olur ki, o zaman biz formal olaraq belə yaza bilərik: $dx/dt = F(S^{t-n})$ (2)" [3, 241].

K.Levinin fikrincə, "bu o zaman mümkün ola bilər ki, növbəti $S^t$ situasiyasının hansı şəkildə bir öncəki $S^{t-n}$ situasiyasından asılılığı məlum olsun; başqa sözlə, əgər $S^t = F(S^{t-n})$ (3) tənliyində F funksiyası məlumdursa [3, 241-242]

Onun fikrincə, "belə bilik adətən onu nəzərdə tutur ki, hər iki situasiya özlüyündə "qapalı sistem"i ifadə edir və "genidentik" olur, həmçinin, öncəki $S^{t-n}$ situasiyasının bütün nöqtələrinin dəyişikliyi və öncəki $S^{t-n}$situasiyası və sonrakı S situasiyası arasındakı aralıq situasiyaların dəyişikliyi ilə əlaqədar olan qanunlar məlumdur" [3, 242]

K.Levin formul (2)-ni gələcək situasiya ilə bağlı olaraq analoji şəkildə yazdıqda onun mahiyyətinin daha aydın anlaşıla biləcəyinə vurğu edir: $dx/dt = F(S^{t+n})$ (2a) [93, 242]. Onun fikrincə, bütün bu nisbətlər yalnız t-dən t+n-ə qədər olan zaman dönəmində "qapalı sistem"lə işləyiriksə və əgər bu dönəmdə baş verən bütün dəyişikliklər bizə məlumdursa mümkündür [3, 242]. Əlbəttə, yadda saxlamalıyıq ki, insan-insan sistemi qapalı deyildir, burada münasibətlər sadəcə "qapalı sistem" qanunları ilə idarə edilə bilməz. Eyni zamanda qeyd etməliyik ki, insan-insan münasibətləri 4-lü struktura malik ola bilər: 1 – "qapalı sistem" daxilində "açıq sistem", 2 – "qapalı sistem" daxilində "qapalı sistem", 3 – "açıq sistem" daxilində "açıq sistem" və 4 – "açıq sistem" daxilində "qapalı sistem". Aşağıda bu strukturlardan bəzisinə aydınlıq gətirməyə çalışacağıq.

Daha sonra K.Levin fiziki olan dx/dt ilə psixi olan davranış anlayışının ekvivalent olduğuna işarə edərək yazır: "İndiki anın nəzəri-sahəvi prinsipi psixologiyada onu bildirir ki, t zaman anında (dilimində) b davranışı yalnız indiki zaman anında (dilimində) S

situasiyasından funksiyadır (biz nəzərdə tuturuq ki, S özünə həm fərdi, həm də onun psixoloji mühitini daxil edir): $b^t = F\ (S^t)$, lakin heç də həm keçmiş və gələcək $S^{t-n}$ yaxud $S^{t+n}$ situasiyalarından funksiya deyillər [3, 242].

Biz psixologiya elmində hər şeyə norma və patologiya müstəvisində yanaşırıq və çox zaman məhz buna görə psixoloji hadisələri lazımınca qiymətləndirə və izah edə bilmirik. Müasir fizikanın nailiyyətlərinə əsaslanan təklifimiz ondan ibarətdir ki, psixologiyanın normada 2 səviyyəsini ayırmamız önəmlidir: *I – tarazlıq* və *II – qeyri-tarazlıq psixologiyası.* Tarazlıq psixologiyası müasir psixologiyanın fundamentini təşkil edir, lakin bu, müvəqqəti haldır. Məhz normada qeyri-tarazlıq psixologiyasının (determinizm prinsipindən vaz keçmək, insan münasibətlərində bifurkasiya nöqtəsinin varlığı, dissipativ strukturların önəmi, davamlı qarşılıqlı təsir, diffuz hədlər, rezonanslar, zaman oxu, özünütəşkil və s. bu kimi məsələlərin) öyrənilməsi izah edilə bilməyən psixi fenomenlərin (intihar, insest və s. bu kimi) mahiyyətini bizə açmağa kömək edəcəkdir. Belə ki, İ.Priqojinin təbirincə desək, "Biz indi öyrənmişik ki, təbiət özünün ən zərif və mürəkkəb strukturlarına məhz zaman oxu ilə bağlı olan dönməyən proseslər vasitəsilə çatmışdır. Həyat ancaq tarazlıqda olmayan Kainatda mümkündür. Tarazlıqdan kənarlıq özünütəşkil və dissipativ strukturlar kimi anlayışlara gətirir" [1, 26-27] fikri əsas ideyamıza işıq tutmuş olur. Bizim fikrimizcə, məhz özünənəzarət qeyri-tarazlıq halında özünütəşkilin əsas elementi olmaqla, tarazlıq halını formalaşdırır.

Yuxarıda qeyd etdiyimiz strukturlardan bəzilərinin izahına gəldikdə isə, deyə bilərik ki, "açıq sistem"in öz bilinən və bilinməyən qanunları vardır, hansı ki, eyni şeyi "qapalı sistem" haqqında deyə bilmərik. Klassik fizikadakı təsvir üsullarını (İ.Priqojinə görə, trayektoriya və dalğa funksiyasına uyğun gələn fərdi səviyyə) fərdin psixoloji mühitini (İ.Priqojinə görə, ansambıllara uyğun gələn statistik səviyyə) daxil etməklə genişləndirən K.Levin sahə nəzəriyyəsi çərçivəsində onun sərhədlərini aşaraq, əslində uzaqgörənliklə müasir elmdə bir çox tədqiqatçının (İ.Priqojin, K.Popper və başqaları) zaman anlayışı ilə üst-üstə düşən fikirlər formalaşdırmışdır. İnsan cəmiyyətdə yaşadığı üçün onun daxil olduğu istənilən münasibətlər dönən deyil, dönməyən proseslərə təkan verir, nəticədə İ.Priqojinin deyimi ilə desək, "bizim qəbul etdiyimiz baxışa görə bütün dönməz proseslər zamanca eyni istiqamətə yönəlib. ... Zaman oxu mövcuddur" [1, 104] və "Zaman oxu ilə bağlı olan dönməyən proseslər, ... dönən proseslər qədər gerçəkdir; ... Dönməyən proseslər təbiətdə fundamental qurucu rol oynayır" [1, 27] fikrinə gəlib çıxırıq. Başqa sözlə, "qapalı sistem"lərdə əgər biz determinizm (trayektoriyalar) haqda danışa biliriksə, "açıq sistem"lərdə bunun yerinə indeterminizmdən (xaotik determinizmdən və ya ehtimallardan) danışa bilərik. M.Gell-Man yazır ki, "... Ehtimal ki, müəyyən nizama malik olan qapalı sistem, təsadüflər nəticəsində, daha çox sayda imkanların mümkün olduğu nizamsızlığa doğru hərəkət edəcək. ..." [1, 24]. Hətta "qapalı sistem"lərdə belə nizamsızlıq olma ehtimalı varsa, o zaman "açıq sistem"lərdə bu məsələ heç kimdə şübhə doğurmamalıdır.

İ.Priqojin yazır ki, "dönməyənlik bizim təcrübələrimizin dəqiqliyindən asılı olmayaraq mövcuddur" [1, 25]. Eyni zamanda o qeyd edir ki, "Təbiətdə həm zamanca dönən, həm də zamanca dönməyən proseslər baş verir, lakin dönməyən proseslər əsas, dönən proseslər isə istisnadır söyləmək düzgün olardı" [1, 18].

İ.Priqojin daha sonra yazır: "Qeyri-tarazlıq fizikası və kimyadakı son nailiyyətlər ... birqiymətli göstərir ki, zaman oxu nizamın mənbəyidir. ... Beləliklə, dönməyənlik həm nizama, həm də nizamsızlığa gətirir" [1, 26]. Zamanın önəminin vurğulanması bu məsələnin təsiredici qüvvəsinin nə qədər həssas ola biləcəyinə dəlalət edir.

K.Levin qeyd edir ki, "davranışın (b.s., adətən psixoloji hadisənin "mənası" adlandırılanın)

psixoloji istiqamətini və sürətini müəyyən etmək üçün biz dərk etməliyik ki, müəyyən zaman dövrünü (kəsimini) də (fizikada olduğu kimi) hesaba qatmaq lazımdır. Bu dövrün uzunluğu psixologiyada nəzərdən keçirilən situasiyanın masştabından asılıdır" [3, 245].Onun fikrincə, psixologiyada "situativ vahidlər" önəm daşıyır, belə ki, onlar həm sahə, həm də zaman ölçülərinə görə cazibəyə malikdir.

İndiki anda mövcud olan psixoloji sahə özünə həmçinin fərdin özünün keçmişi və gələcəyi haqqında təsəvvürlərini daxil edir. K.Levinə görə [3], fərdin öz keçmişinə, eləcə də, fiziki və sosial aləmin keçmişinə baxışı, əsasən, yanlış olsa da, buna baxmayaraq, onun həyati məkanında keçmişin "reallığı səviyyəsi"ni təşkil edir. Bununla yanaşı, onun fikrincə, əksər zamanlarda həyati məkanda keçmişə münasibətdə arzular səviyyəsini də müşahidə etmək olar. K.Levinə görə, günah fenomeninin yaranması məhz bu iki – irreal və real strukturlar arasında olan ayrılma ilə əlaqədardır. Psixoloji gələcəyin strukturu isə, onun fikrincə, ümid və planlaşdırma ilə sıx əlaqədardır.

K.Levin L.K.Franklın terminologiyasında olan "zaman perspektivi" anlayışını istifadə edərək psixoloji sahəyə yeni rəng qatmağa çalışırdı ki, məncə də buna nail olmuşdur. O qeyd edir ki, indiki anda mövcud olan zaman perspektivi fərdin iddia səviyyəsi, əhvalı, konstruktivliyi və təşəbbüskarlığı kimi bir çox problemin öyrənilməsində vacib əhəmiyyət daşıyır. Ələlxüsus, özünənəzarət sahəsinin anlaşılmasında iddia səviyyəsi və təşəbbüskarlığın tələbənin həyati məkanında var olmasının nə qədər önəmli olduğu göz önündə tutularsa, K.Levinin indiki anda zaman perspektivinin dəyərini daha çox dərk etmiş olarıq.

O yazır: "Başa düşmək vacibdir ki, psixoloji keçmiş və psixoloji gələcək – indiki t anında mövcud olan psixoloji sahənin sinxron hissələridir. Zaman perspektivi fasiləsiz dəyişir. Sahə nəzəriyyəsinə müvafiq olaraq, istənilən davranış tipi indiki anda zaman perspektivini daxil edərək bütünlüklə sahədən asılıdır, lakin davranış nə keçmiş, nə də gələcək sahədən zaman perspektivlərini də nəzərə almaqla asılı deyil" [3, 246].

K.Levinin fikrincə, inkişafın gedişində zaman perspektivi genişlənir (böyüyür), belə ki, o yazır: "balaca uşaq indiki zamanda yaşayır; onun zaman perspektivi özünə ancaq yaxın keçmişi və yaxın gələcəyi daxil edir. Zaman perspektivinin bu böyük olmayan ölçüsü, adətən, "primitiv davranış" adlandırılan şey üçün xarakterikdir. Uşağın həyati məkanının zaman ölçüsü yaşla artır; daha çox uzaq olan gələcək və keçmiş hadisələr indiki davranışa təsir göstərir" [4, 96]. Bunun psixoloji mahiyyəti ondan ibarətdir ki, şəxsiyyətin formalaşması fərdin zaman perspektivinin genişliyinə (böyüklüyünə) bağlıdır və sadəcə genişliyinə də deyil. Daha irəli gedərək deyə bilərik ki, insanın uzaq keçmişi və uzaq gələcəyi arasındakı nisbət ekvivalent olmalıdır. Əgər, misal üçün, hər hansı fərdin keçmiş xatirələrinin gələcək ümidlərinə nisbəti $\pm 1$ –dən çox ya da az olarsa, həmin fərdin normal şəxsiyyət kimi inkişafı qeyri-mümkün görünür. K.Levinin fikri ilə desək, "normal inkişaf özündə həyati məkanın reallıq – irreallıq ölçülərində artan diferensiasiyasını daşıyır. Balaca uşaq arzuları faktlardan, ümidləri gözləmələrdən aydın şəkildə ayırd etmir" [4, 96].

1941-ci ildə E.Brunsiklə mübahisə zəminində, K.Levin təsdiq edirdi ki, "həm indiki və gələcək situasiyanın qavranılmasının subyektiv anını, həm də gözləmələrin davranışa təsir etdiyini nəzərə almaq zəruridir" [2, 61].

Bu məqamda sonrakı fəsildə açıqlayacağımız "özünənəzarət sahəsi"nin önəminə vurğu etmək istəyirik. Çünki bizim iddiamıza görə, hansı ki, daha sonra tədqiqatımızda öz sübutunu tapmışdır, zaman perspektivinin genişləməsi (tələbələrin "baxış bucağı"nın genişləməsi) "özünənəzarət sahəsi"nin yaradılmasından asılıdır. Bu sahə yaradılmadığı təqdirdə, K.Levinin fikrincə desək, "zaman perspektivi daralır və reallıq və irreallıq arasındakı fərq yox olur" [4,

96]. Günümüz reallığında buna bariz misal təhsil sektorumuzdakı mütəmadi baş verən yeniliklərin ardı-arası kəsilmədən məktəblərə, universitetlərə daxil olmasıdır. Yetişən nəsil, hətta orta və yaşlı nəsil bir yeniliyə uyğunlaşmadan (özünənəzarət sahəsi formalaşdırmadan) digər yeniliyin xəbərini eşitməklə, görməklə, öz üzərində onun nəticələrini hiss etməklə qeyri-müəyyənliyə sürüklənir. Bu isə, öz novbəsində, stress və frustrasiya situasiyası yaradır. K.Levin yazır ki, "göstərilmişdir ki, qeyri-təhlükəsiz yaxud frustrasiya situasiyasında 5 yaş yarımlıq uşağın məhsuldarlığı 3 yaş yarımlıq uşağın səviyyəsinə qədər enə bilir. Bu enmə qismən bu şəraitdə zaman perspektivinin azalması ilə çağrılmışdır" [4, 96].

K.Levin indiki zamanda mövcud olan faktorlar sferasında 3 sahəni ayırd edir [3]:

1) "Həyati məkan", b.s., fərd və onun psixoloji mühiti (tələbatları, motivasiya, əhval, məqsəd, həyəcan və idealları);

2) Fiziki və sosial aləmin indiki anda fərdin həyati məkanına təsir etməyən çoxsaylı prosesləri;

3) Həyati məkanın "sərhəd zonası": fiziki və sosial aləmin müəyyən hissələri indiki anda həyati məkanın vəziyyətinə təsir edir (qavrama prosesi və əməlin "icrası").

"Sahə nəzəriyyəsi baxımından, bütün dəyişmələr öz yaranmasına görə müəyyən qüvvələrə (istiqamətlənmiş meyllərə) borcludur. Koqnitiv strukturların dəyişmələrinə gətirib çıxarmış qüvvələr arasında iki ayrıca tipi fərqləndirməyin anlamı vardır: koqnitiv sahənin özü ilə əlaqədar olan qüvvələr və müəyyən valentliklərlə (tələbat yaxud motivlərlə) əlaqədar olan qüvvələr [3, 270].

K.Levinə görə, insan davranışı kvazitələbatın formalaşması ilə müəyyən edilir [2]. Kvazitələbat insanın hər hansı niyyəti, əməli həyata keçirərkən onda yaranan dinamik haldır və ya aktivlikdir. Mənşəyinə görə sosial xarakter daşıyır, lakin sosial olan, K.Levinə görə, ictimai cəhətdən şərtlənmiş deyil, indiki konkret anda yaranan deməkdir [2].

K.Levin deyir ki, "ətraf mühit yaxud "sahə", hansında ki, müsbət və mənfi valentlikli predmetlər mövcuddur, kvazitələbatlarla, onların formalaşması ilə sıx əlaqədədir" [2,49-50]. Başqa sözlə, onun fikrincə, "predmetlərin valentliyi kvazitələbatlarla qarşılıqlı təsirdə insan davranışını formalaşdırır" [2, 50].

İki tip "sahəvi" davranış haqqında söhbət açılır [2]:

I tip. Əsasında tələbat durur: əgər susuz olarıqsa, su bizim üçün "təhrikedici" xarakter kəsb edər.

II tip. Bura o hallar aiddir ki, subyektin situasiya davranışı və tələbatın mövcudluğu arasında korrelyasiyanı müəyyən etmək mümkün deyil; belə hallarda təsadüfi anlar əməlin mənbəyi olur, məsələn, ayağına doğru gələn topa vurmaq istəyirsən [2, 51-52].

B.V.Zeyqarnikə görə, normada I tipə, patologiyada isə II tipə rast gəlirik, əgər bu II tip subyektiv davranışın dominant mənbəyi olarsa.

"Həyati məkan" anlayışı psixoloji sahə anlayışına görə daha həcmli olduğuna görə, zamanla K.Levin bu anlayışı istifadə etmişdir. Onun fikrincə, insan davranışı özünə şəxsiyyət (gərginlik sisteminin "daxili sahə"si) və onun psixoloji mühitini (konkret qüvvə və təsirlərin "xarici sahə"si) daxil edən konkret tamlıq tərəfindən müəyyən olunur [2]:

B (behavior) =*f(P*-personality; *E*-environment*)*

K.Levinin həyati məkan anlayışı müxtəlif sektor və regionlardan təşkil olunur [5, 589]. Həmin regionlar sərhədlərlə ayrılır. Sərhədlər də, öz növbəsində, keçiriciliyə malikdir. Regionlar arasında əlaqə lokomosiyalar vasitəsilə həyata keçirilir. Lokomosiyanın funksiyası insanın həyati məkanında gərginliyin tənzim olunmasından ibarətdir.

Sahə nəzəriyyəsi haqqında bizi yönləndirə biləcək əsas müddəalara toxunmağa çalışdıq.

Əlbəttə bu qısa xülasədə K.Levinin bütün yaradıcılığını əhatə etmək imkanımız yoxdur. Sadəcə sahə nəzəriyyəsinin əsas konturlarını göstərmək tədqiqatımızın ana qayəsini anlamaq üçün böyük əhəmiyyət daşıyır.

Fizikanın bu günkü nailiyyətlərinin insan psixologiyasına şamil edilməsi, zənnimizcə, ən doğru yanaşmalardan biri ola bilər.

**Məqalənin aktuallığı.** Qeyri-tarazlıq psixologiyası intihar, insest və s. bu kimi hadisələri izah edə bilmək baxımından elmi-nəzəri və praktik aspektdə xüsusilə aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə psixologiyanın yeni sahəsinin – Qeyri-tarazlıq psixologiyasının yaradılması təklif olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Qeyri-tarazlıq psixologiyası praktik əhəmiyyət kəsb etməklə, bir çox izah edilə bilməyən psixoloji fenomenlərin araşdırılmasında yeni perspektiv açmış olur.

## Ədəbiyyat

1. Priqojin İ. Müəyyənliyin sonu. Zaman, xaos və təbiətin yeni qanunları / İngilis dilindən tərcümə edənlər: S.T.Babazadə, V.T.Quliyeva. Bakı: Bilik, 2003.
2. Зейгарник Б.В. Теория личности К.Левина. М.: Изд-во Моск. унив-та, 1981.
3. Левин К. Динамическая психология: Избранные труды. М.: Смысл, 2001.
4. Левин К. Теория поля в социальных науках / Пер. с англ. СПб.: «Сенсор», 2000.
5. Фрейджер Р., Фейдимен Дж. Теории личности и личностный рост / Пер. с англ. Спб.: Прайм-ЕВРОЗНАК, 2008.

**М. Алиев**

## Неравновесная психология: новый взгляд к теорию поля

## Резюме

Равновесная психология является основой современной психологии, но это временное явление. В норме изучение неравновесной психологии поможет нам обнаружить сущность психических явлений (самоубийство, инцест и т. д.), которые невозможно объяснить.

**M. Aliyev**

## No equilibrium psychology: a new view of field theory

## Summary

Equilibrium psychology is the basis of modern psychology, but this is a temporary phenomenon. Normally, the study of no equilibrium psychology will help us to discover the essence of psychic phenomena (suicide, incest and etc.), which cannot be explained.

**Redaksiyaya daxil olub:** 29.05.2018